*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 94-98*

https://doi.org/10.62837/2025.2.94

**ƏLİYEVA MƏTANƏT MURAD QIZI**
**Azərbaycan Dillər Universiteti**
**Mail:eliyevam995@gmail.com**
**Orcid İD:0009-0008-7448-7487**

# QƏDİM TÜRK TOPONİMİ ALPOUT HAQQINDA

Lüğət tərkibinin əsas qolunu təşkil edən xüsusi adların, eləcə də toponimlərin, onların müxtəlif növlərinin, mikrotoponimlərin tədqiq edilməsi xalqların tarixi keçmişinin, ərazinin aborigenlərinin, onların milli təfəkkürünün öyrənilməsi istiqamətində mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın hər bir bölgəsində coğrafi adların tədqiqata cəlb edilməsi bu günümüz üçün də dilçiliyin aktual məsələlərindəndir.

Azərbaycan dili onomastikasının dilçilik müstəvisində tədqiqi XX əsrdən daim dilçi və coğrafiyaşünas alimlərin tədqiqat obyekti olmuşdur. Azərbaycan dilçilərindən A.Axundov, A.Qurbanov, R.Yüzbaşov, B.Budaqov, T.Əhmədov, Q.Qeybullayev, S.Mollazadə, H.Mirzəyev, V.Əliyev, R.Eyvazova, Q.Məşədiyev, M.Adilov, A.Paşayev, M.Çobanov, Y.Yusifov, R.Əliyeva, M, Hüseynova, Q.Mustafayeva, Ə.Tanrıverdiyev, N.Əsgərov, H.Hüseynova, V.İsrafilov, K.Səmədova, İ.Kərimova və başqaları həmin sahədə dəyərli tədqiqat işləri yazmışlar.

Azərbaycan onomastik vahidləri, o cümlədən toponimlər bu gün də tarixi, coğrafi və dilçilik baxımından diqqətlə tədqiq olunmaqdadır. Qədim tarixə malik ölkəmizin ayrı-ayrı bölgələri üzrə qeydə alınmış toponimlərin öyrənilməsi istiqamətində görülən işlər bu sırada xüsusi yer tutur. Belə bir meyl Azərbaycan onomastik vahidlərinin bütün bölgələr üzrə toplanıb tədqiq edilməsinə zəmin yaradır. Ayrı-ayrı rayonlar üzrə aparılmış tədqiqat işlərinin nəticələri növbəti mərhələlərdə qonşu rayonların onomastik vahidləri ilə müqayisəli araşdırmaların aparılması üçün geniş material verir.

Mövzunu işləməkdə məqsəd Azərbaycanın bəzi mikrotoponimlərinin tarixi-linqvistik aspektdə leksik-semantik xüsusiyyətlərinin araşdırılması və Azərbaycan onomastik sistemində onların yerini müəyyənləşdirilməsidir.

Azərbaycanda yaşamış tayfa və qəbilələrin adları ilə bağlı onomastik vahidlərə ölkəmizin bütün ərazilərində rast gəlinir. Müxtəlif yazılı və şifahi mənbələrdən, qədim tarixi sənədlərdən məlum olur ki, ölkəmizin ərazisində tarixin müxtəlif dövrlərində tayfa və qəbilə adları ilə bağlı toponimlər yaranmış və bu adlarda qədim türk tayfalarının adları-izləri qorunub saxlanmışdır. Çünki Azərbaycan ərazisi ta qədim dövrlərdən strateji əhəmiyyətə malik olmuş, buradan karvan yolları keçmişdir. Ölkə ərazisində daim müharibələr baş vermiş, bu da ərazinin etnotoponim mənzərəsinin rəngarəngliyini artırmışdır. Toponimlərin areallığına səbəb olmuşdur. Biz bu məqalə-

də areallığı ilə fərqlənən toponimlərin leksik-semantik cəhətlərini ümumiləşdirməyə çalışacağıq. *Nümunələrə baxaq*:

Alpout toponimi istər Azərbaycan ərazisində, istərsə də qədim yazılı mənbələrdə kifayət qədər geniş işlənmiş, aktiv, intensiv rastlanan coğrafi addır. Bu ad haqqında nə bilirik?

Elmi mənbələrdə Azərbaycanda Alpout adlı 11 kəndin mövcud olması haqda məlumat verilmişdir (2. 275).

Göyçay qəzasında Alpi, Alpout-Mərdan, Alpout-Mehdibəy adlarında kəndlər mövcud olmuşdur (3. 16). Hazırda Azərbaycanda Alpout adlı 6 kənd (Laçın, Bərdə, Goranboy, Göyçay, Ucar, Qazax) vardır. Ümumiyyətlə, "Alp" sözü əsasında yaranmış oykonim və oronimlərin areallarına istər Azərbaycan ərazisində, istərsə də Azərbaycandan kənarda rast gəlmək mümkündür. Göyçayda Alpout qobusu, Göyçay-Qəbələ sərhədində Arvan dərəsi, Arvan dağı, Qubada Alpan kəndi, Alpan təpəsi, Ucarda Alpı//Alplı kəndləri, Şamaxıda Alpan dərəsi, Qazaxda Alpout düzü, Qaxda Alban qalası, Naxçıvanda Alpan təpələri, Türkmənistanda Alpan kəndi, Gürcüstanda Alpani adlı 2 kənd, Alvan qalası, Qərbi Azərbaycanda (indiki Ermənistan) Alpan dərəsi, Alpova kəndi, Krımda 2 Alpan kəndi, Azərbaycan – Dağıstan sərhədində Alpanlar kənd xarabalığı, XIX əsrdə Lənkəran qəzasında mövcud olmuş Albani kəndi bu qəbildən olan toponimlərdir (4. 30).

Alpout//Alpavut//Alpağut türkdilli tayfasının adı türk mənbələrində VIII əsrdən etibarən çəkilir. Bu tayfa XI-XII əsrlərdə Səlcuq oğuzlarının, XIV-XV əsrlərdə qaraqoyunluların, sonra isə ağqoyunluların tərkibinə daxil olub. Səfəvilər dövründə isə onların Çuxursəd və Şirvanda yaşadıqları məlumdur (2. 276).

Alpout və fonetik cildinə görə ona yaxın olan toponimlər haqqında fikir və mülahizələrə, araşdırma və təhlillərə müxtəlif tədqiqatçıların əsərlərində də rast gəlinir.

Alpout sözünü *al+pout* və ya *alp+out* şəklində təhlil etmək olar. Bununla belə, ikinci komponentin (*-out* və *-pout*) müasir Azərbaycan dilinin normaları üzrə dəqiq leksik-qrammatik izahını vermək çətindir. Təhlil ardıcıllığını davam etdirsək, ilk öncə "alp" sözünün mənasını axtarmalıyıq.

Orxon-Yenisey abidələrində *alp* sözü "igid, qəhrəman, cəsur" mənasında kifayət qədər çox işlənir. Abidədə Alp Urunu, Alp Şalçı şəxs adları və "alpağu" rütbə adları da vardır (7. 387).

Yeri gəlmişkən, onu da qeyd etmək lazımdır ki, M.Abbasovaya görə Alpout Orxon yazılarında adı çəkilən türk tayfalarındandır (1. 25). Lakin biz həmin tarixi abidədə belə bir türk tayfasının adının qeyd edilməsi faktına təsadüf etmədik. Bununla belə, kitabda Ə.Rəcəbov və Y.Məmmədovun *alpağu* rütbə adı əsasında formalaşan kənd adları haqqındakı fikri müəyyən paralellərin aparılmasına imkan verir. Mahmud Kaşğarinin lüğətində *al* sözünün dörd mənası verilir. Onlardan "hiylə" və "almaq" mənaları toponimik adlar üçün məqbul sayıla bilməz. "*Al* – xan üçün bayraq, dövlət adamlarının atlarına yəhər örtüsü tikilən turuncu rəngli ipək qumaş; *al* – al rəng"

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 94-98*

mənaları isə qismən maraq doğurur. Həmin mənbədə *alp* sözünün "igid, qəhrəman, bahadır" mənası ilə yanaşı, *alpağut* sözü və onun mənası – "*Alpağut* – təkbaşına düşmənə saldıran ələkeçməz igid" verilir (5. 27). M.Kaşğarinin əsərinin birinci cildində də *alpağut* sözü haqqında məlumat vardır. Burada sözün "yenilməz güləşçi, bahadır, pəhləvan" mənası göstərilir və bu barədə dörd misralıq şeir parçası verilir:

"Kitabi-Dədə Qorqud" dastanında "igid, cəsur" mənalarında *alp//alb* və *alpan* sözləri işlənmişdir. "Alp ərə qorxu vermək eyb olur" (6. 86), "Məndən sonra alb ozanlar söyləsün!", "Ağ-boz atlar çapdırır alpanlar gördüm" (6. 95), "Alpanlar başı Qazan oğlancuq ilə sərxoş olub, yaturlar, - dedi" (6. 69). Abidədə "alp olmaq" (igid, cəsur olmaq) və "alp başı" (igidlərin igidi, böyüyü) birləşmələri də qeydə alınır: "Yalnız yigit alp olmaz", "Alplar başı Qazana zərb urdu, – dünya başına tar oldı" (6. 99).

"Qədim türk sözləri lüğəti"ndə *alp* sözünün müxtəlif mənalarından bəhs olunur. Lüğətdə alpağu "qəhrəman, pəhləvan" mənalarında verilir və bu zaman Orxon-Yenisey abidələrinə istinad olunur. Həmin söz "alpağut"la müqayisədə eyni mənadadır və M.Kaşğariyə istinadla izah edilir. Bu mənbədə "alpan" məqaləsinin qabağında "alban" sözünə keçid qoyulmuşdur. Alban monqol "alba(n)" sözü əsasında şərh edilir. Onun izahı "öhdəlik, verim, borc, xidməti vəzifə borcu" anlamını verir (11. 36).

A.Bakıxanov Quba qəzasında yerləşən Alpan kəndinin adının "alban"dan qaldığını yazır, eyni zamanda "alan" sözünü də bu cərgəyə daxil edir. Müəllif hələ e.ə. 85-ci ildə alban atlılarının Pompeyin qoşunlarına qarşı çıxdıqlarını göstərmişdir (9. 17).

Q.Qeybullayevin verdiyi etnonimlər siyahısında alpan (alban), alpat, alpaut, alpı etnonimləri vardır. O, alpı etnonimini alp+ı kimi ayıraraq, onun avşar qəbiləsi olmasını, alpan (alban) – *alp+an*, alpaut – *alp+a+ut*, alpat (albat) – *alp+a+t* etnonimlərinin isə alp türk qəbiləsi adı olmasını qeyd etmişdir. Müəllif ayırmadakı "t", "n" samitlərini cəmlik və ya mənsubiyyət bildirən şəkilçi, onlardan əvvəl işlənən samitləri isə bitişdirici ünsür hesab edir (10. 53-54). Bu halda *alpaut* sözündə iki bitişdirici saitin "a", "u" saitinin olması və o>a əvəzlənməsinin izahına ehtiyac yaranır. İki saitin türk dillərində ardıcıl gəlməsi də distributiv məhdudiyyətə malikdir.Beləliklə, *Alpout* sözü struktur və məna xüsusiyyətlərinə görə *Alp oğuz* konstruksiyasına uyğun gəlir. … Oxut yer adı *oğuz* sözündən x>ğ və t>z fərqlənməsi ilə ayrılır. Sözün fonomorfoloji quruluşunda x>ğ, t>z keçidlərinin qanunauyğunluğunu nəzərə aldıqda *oğut* və *oğuzun* eyni mənşəli olduğunu söyləmək olar" (8. 108).

A.Bayramov İrəvan quberniyasına daxil olan Qəmərli dairəsində Alpava//Alpova kəndi haqqında da məlumat vermişdir.

**Nəticə.**

Azərbaycan toponimiyasının əsas tərkibi türk mənşəlidir, onların çox hissəsi etnotoponimlərdir, xalqımızın etnogenezində iştirak etmiş qəbilə, tayfa adlarından

yaranmışdır. Bu etnotoponimlərin çoxuna Azərbaycanın və dünyanın müxtəlif ərazilərində paralellərinə rast gəlinir.

Onomastik vahidlərin toplanması, təsnifi və linqvistik təhlili Azərbaycan dilinin tarixini, mənşəyini, inkişaf qanunauyğunluqlarını öyrənmək baxımından əhəmiyyətlidir. Tədqiqat işi tarixi və təsviri onomastika sahəsində aparılacaq araşdırmalara, Azərbaycan dilinin onomastik sisteminin dövrlər üzrə öyrənilməsi məsələlərinə müəyyən fayda verə bilər. Müxtəlif lüğətlərin, məlumat kitablarının hazırlanması zamanı bu faktlardan lazımınca istifadə etmək olar.

## ƏDƏBİYYAT

1. Abbasova M. Tovuz toponimləri haqqında / Azərbaycan onomastikası problemləri. II b., Bakı: APİ, 1988, s. 24-27.
2. Azərbaycan Sovet Ensiklopediyası. I c., Bakı: ASE, 1976, 592 s.
3. Dəmirçizadə Ə. 50 söz. Bakı: Gənclik, 1968, 104 s.
4. Əsgərov N. Areal türk onomastik vahidlərinin linqvistik xüsusiyyətləri. Bakı: Elm, 2005, 485 s.
5. Kaşğari Mahmud. Divanü luğat-it-türk. IV c., Bakı: Elm, 2006, 752 s.
6. “Kitabi-Dədə Qorqud” dastanları. Bakı: Yazıçı, 1988, 265 s.
7. Rəcəbov Ə., Məmmədov Y. Orxon-Yenisey abidələri. Bakı: Yazıçı, 1993, 400 s.
8. Yusifov M.İ. Oğuz etnonimi ilə bağlı toponimlər / Azərbaycan onomastikası problemləri. II b., Bakı: APİ, 1988, s. 108-110.
9. Бакиханов А. К. Гюлистан Ирам. Баку: Элм, 1926, 196 с.
10. Гейбуллаев Г.А. К этногенезу Азербайджанцев. Баку: Элм, 1991, 552 с
11. Древнетюркский словарь. Ленинград: Наука, 1969, 676 с.

**Əliyeva Mətanət Murad qızı**

**Qədim türk toponimi Alpout haqqında**

**Xülasə**

Olduqca qədim tarixə malik olan Azərbaycan ərazisinin coğrafi adları, toponimləri, mikrotoponimləri ərazinin tarixi, ərazinin aborigenləri haqqında ən düzgün məlumatları özündə əks etdirən qiymətli mənbələr olduğuna görə onların tədqiqi bütün dövrlərdə əhəmiyyətini qoruyub saxlayır. Bu adların toplanması, lüğətlərdə, xəritələrdə əbədiləşməsi vacibdir. Torpaqlarımızda daim gözü olan və ərazilərimizi özününküləşdirməyə çalışan düşmənləri susdurmaq üçün qədim xəritələr, lüğətlər, coğrafiyaşünas-səyyahların, tarixçilərin qeydləri hər zaman elm adamlarının köməyinə çatır. Alpout toponiminin haqqında topladığımız, ümumiləşdirib təqdim etdiyimiz məlumatlar da elə qədim və orta dövr yazılı mənbələrdən, müasir elmi tədqiqatlardan götürülmüş fikirləridir. Bütün məlumatlar onu deməyə əsas verir ki, bir çox adlarımız kimi Alpout toponimi də türk mənşəlidir, oğuzlarla əlaqələndirilir. Əhalinin igidliyini, döyüşənliyini söyləməyə əsas verir.

**Açar sözlər:** toponim, coğrafi ad, qədim, etnos, türk

**Алиева Матанат Мурад**

**О древнетурецком топониме Алпоут**

**Краткое содержание**

Географические названия, топонимы, микротопонимы территории Азербайджана, имеющей очень древнюю историю, являются ценными источниками, содержащими наиболее достоверные сведения об истории края и аборигенах края, поэтому их изучение остается важным во все времена. Важно собрать эти имена, увековечить их в словарях и картах.

Древние карты, словари, записи географов-путешественников и историков всегда приходят на помощь учёным, чтобы заставить замолчать врагов, которые всегда следят за нашими землями и пытаются сделать наши территории своими. Информация, которую мы собрали, обобщили и представили о топониме Алпоут, представляет собой идеи, взятые из древних и средневековых письменных источников, а также современных научных исследований. Вся информация позволяет предположить, что топоним Алпоут, как и многие наши имена, имеет тюркское происхождение и связан с огузами. Это дает повод говорить о храбрости и боевом духе населения.

**Ключевые слова**: топоним, географическое название, древний, этнос, тюркский.

**Alieva Matanat Murad**

**About the ancient Turkish toponym Alpout**

**Summary**

Geographical names, toponyms, microtoponyms of the territory of Azerbaijan, which has a very ancient history, are valuable sources that contain the most correct information about the history of the territory and the aborigines of the territory, so their study remains important in all times. It is important to collect these names, perpetuate them in dictionaries and maps.

Ancient maps, dictionaries, records of geographers-travelers and historians always come to the aid of scientists in order to silence the enemies who always have eyes on our lands and try to make our territories their own. The information we collected, summarized and presented about the Alpout toponym are ideas taken from ancient and medieval written sources and modern scientific researches. All information suggests that the toponym Alpout, like many of our names, is of Turkish origin and is associated with the Oghuz. It gives reason to talk about the bravery and fighting spirit of the population.

**Key words**: toponym, geographical name, ancient, ethnos, Turkish

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru: Ülkər Heydər qızı Aslanova**